varlardan asdığı rəngbərəng təsbehlərin səliqəsizliyinə fikir vermədən başını bağlayıb özünü yatağa saldı. O vaxtdan sonra hərdənbir də olsa, mahnı və ya xəbər dinləmək üçün istifadə etdiyi radioqəbuledicini belə açmadı və bir gözü pəncərədə həmişə çölə baxdı. Adətən, zamansız gələn ölüm qəfildən ortaya çıxacaqmış kimi, yaşlı gözlərini evinin önündən keçən ağaclı çöllüyə, onun içərisindən axan dərəyə, sanki illərlə orada olan ağaclara, uçuq-sökük halda gözləyən köhnə qəsəbənin xarabalıqlarına dikdi.

Lakin bu dünyadakı hər kəsin və hər şeyin sonunu gözləmək mümkün olsa da, ölümün bircə dəqiqə belə gözləməyə səbri yox idi. Anadolunun dörd bir tərəfində gül-çiçək içində keçən bir-iki həftədən sonra baharın nəfəsini hiss edən qocalar bir-bir ölməyə, məscidlərdən və yuyatlaradan yenidən dörd qollular qalxmağa başladı. Ölünün arxasında qalan biçarə və kədərli insanlar az da olsa rahatlamaq üçün Arquvana yola düşdülər.

Amma yaşlı qadın kədərli ölü sahiblərini, il verənlərin xahişlərini, onun üçün qəsəbənin başbilənlərinin vasitəsilə xəbər göndərən varlı insanların dəvətlərini belə qəbul etmədi. Kiminə xəstə olduğunu, kiminə başqa yerə çağırıldığını söylədi, kimini də kobud sözlərlə çürümüş taxta qapısından qovdu. Beləcə, bir müddət evinə gəlib-gedən olmadı. Lakin çox keçmədən bu viran qalmış evin olduğu təpədə dayanan ricaçılara yeniləri qoşuldu. Lakin onlar da müsbət cavab ala bilmədi.

Ölü sahibləri qadının nədənsə incidiyini düşünərək yanına gedəndə bütün yaşlıların sevdiyi fındıqlı lokumlardan apardılar. Hətta ona ödənən göz yaşı haqqının az olduğunu düşünüb daha çox pul təklif etdilər. Kimisi də yaşlı qadını razı salar, daş qəlbini yumşaldar deyə özlərini bağlı qapının qarşısında yerə çırpıb ölülərinin ürək parçalayan hekayələrini danışdı. Ağıçı qadın bəlkə də bu əhvalatlardan birinə inanıb razılaşar deyə ümid etdilər, lakin nə qədər dil töksələr də, fayda etmədi, qapını açmayan yaşlı qadını heç cür razı sala bilmədilər.

Kimisi ondan incidi, kimisi təhqiredici sözlər deyib evinə qayıtdı. Fəqət bu qapıya gələn yas sahiblərinin sayı heç də azalmadı, əksinə, günü-gündən daha da artdı. Axırda bu xahişçilərdən yorulan yaşlı qadın qapıya gələn Arquvanlılara artıq gəlməmələrini, bundan sonra heç bir yerə getməyəcəyini, ağıçılıq etməkdən əl çəkdiyini söylədi. Sonra isə bağlı qapının arxasından barmaqları ilə hesablayıb gözlərini ulduzlara çevirdi. Hesab-kitabı qurtardıqdan sonra taleyinə yazılan ömür payından xəbərdar olduğunu, düz on altı gündən sonra öləcəyini, bu səbəbdən heç yerə getməyib yorğan-döşəyində əzrayılı gözləyəcəyini qəti şəkildə bildirdi.

Qapısına yığışan xahişçilər onu başa düşməyib qapını yumruqlayan zaman onun qəzəbli səsi eşidildi. Yaşlı qadın qapının arxasından hirslə: "Bundan sonra ağı deməyə getməyəcəyəm", - deyə qışqırdı. Sonra isə səsinin tonunu aşağı salıb sakitcə "on altı gündən sonra öləcəyəm", - dedi.

*Hazırladı:*
Nərmin CAHANGİROVA



**Ədəbiyyat qəzeti.- 2017.- 13 may.- S. 7.**